# Novruz bayramınız mübarək!




Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 54 (21.464)

20 mart 2016-cı il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva hər il olduğu kimi, bu il də Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəliblər.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırıb.

Dövlətimizin başçısı bayram şənliyində nitq söyləyib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəliblər. Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşılayıblar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxıblar.

Dövlətimizin başçısı və xanımı Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi “Novruz” yarmarkası ilə tanış olublar.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirib.



## Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Novruz dostluq, ünsiyyət və yenilik bayramıdır. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə təcəssüm etdirən bu bayram insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqət göstərməsi üçün daima gözəl zəmin yaratmışdır. Novruz həmişə barışıq, ülfət və səmimiyyət bayramı olmuşdur”.***






Novruz bayramının özünəməxsus adət və ənənələri birlik, bərabərlik, keçmişə ehtiram və gələcəyə inam hissləri aşılayır. Azərbaycan xalqı tarixən bəşəriyyətin yaranışı, təbiətin oyanışı barədə zəngin dəyərlər sistemi yaradaraq onu Novruz mərasimlərində ümumiləşdirmişdir. Bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da baharın gəlişi xoş arzularla qarşılanır, Novruz bayramı böyük el şənlikləri ilə qeyd olunur, xalq yaradıcılığı günləri keçirilir.

Martın 19-da Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Kompleksində Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində iştirak etmişdir.

Milli geyimli oğlan və qız Novruzun rəmzi olan səmənini Ali Məclisin Sədrinə təqdim etmiş, Naxçıvan Dövlət Filarmoniyasının rəqs ansamblı yallı rəqsi ifa etmişlər.

Bayram tədbirində el ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək demişdir: Ötən il böyük əməllərlə yadda qaldı. Urvatlı olsun! Əlincəqala yenidən bənd-bərəsini möhkəmlətdi. Düşərli olsun! Onunla bərabər igidlərin də qoluna qüvvət gəldi. Təpərli olsun! El ağsaqqalı Dədə Qorqud deyir ki, heç nə səbəbsiz yaranmır. Bütün bunları yaradanlar var. Ömürləri uzun olsun! Bu əziz gündə diləyimiz budur: xalq üçün yaşayanlara, xalq üçün yaradanlara alqış olsun!

Xalq qəhrəmanları Babək və Koroğlu da xalqımızın vətənpərvərlik, qəhrəmanlıq şücaətlərindən söz açmış, təbriklərini çatdırmışlar.

Aşıq-ozan poeziyası xalqımızın qədim dəyərlərindən biridir. Azərbaycanda bu sənətin ən böyük abidəsi “Dədə Qorqud” dastanıdır. Vətənpərvərlik duyğularının, torpaq, yurd sevgisinin yüksək poetik tərənnümü olan aşıq sənətinə Naxçıvanda xüsusi qayğı ilə yanaşılır, aşıq yaradıcılığının inkişafına ciddi diqqət yetirilir. Hər il Novruz bayramı şənliklərində saz havalarına geniş yer verilməsi bu diqqət və qayğının təzahürüdür. Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvlərindən Tural Bağırovun, Şirin Şirinzadənin və Aydın Cəfərovun ifa etdiyi “Gözəlləmə” aşıq havası xoş ovqat yaratmışdır.



Azərbaycan xalqının milli dəyərlərindən biri də muğam sənətidir. Milli musiqi sənətimizin əsasını təşkil edən muğamlarımız dünyada tanıdılır, təbliğ olunur. Bu gün Naxçıvan Musiqi Kollecində, uşaq-musiqi məktəblərində muğamlarımız gənc nəslə öyrədilir, istedadlı muğam ifaçıları üzə çıxarılır, el şənliklərində muğam ifalarına geniş yer verilir. Naxçıvan Musiqi Kollecinin muğam üçlüyünün ifa etdiyi “Mahur təsnifləri” tədbir iştirakçılarının zövqünü oxşamışdır.

Tədbirdə Naxçıvan Musiqi Kollecinin “Naxçıvanqala” ritm qrupu da maraqlı kompozisiya təqdim etmişdir.

Yallı rəqsi mərdlik və mübarizlik, vətənpərvərlik və həmrəyliyin mükəmməl bədii ifadəsidir. Bəşəriyyətin yaşı qədər qədim olan, Gəmiqaya abidələrində də təsvir olunan bu sənət Naxçıvanda qorunub yaşadılır, gənc nəslə öyrədilir. Naxçıvan Musiqi Kollecinin rəqs ansamblının üzvlərinin təqdim etdiyi yallı rəqsi şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır.

Bayram şənliyində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin Gənc Heydərçiləri ulu öndərimizə və vətənimizə həsr olunmuş şeirlər söyləmişlər.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin Əcəmi seyrəngahındakı büstünün qarşısında Gənc Heydərçilərlə şəkil çəkdirmişdir.

Naxçıvan Musiqi Kollecinin sazçalanlar ansamblı “Ovşarı” saz havasını səsləndirmiş, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” mahnı və rəqs ansamblının balaca fidanları “Novruzu” rəqsi ilə bayram şənliyinə ovqat qatmışlar. Naxçıvan şəhər “Gənclik” xalq teatrı aktyorlarının Süleyman Rüstəmin “Durna” komediyasının motivləri əsasında hazırladığı səhnəcik maraqla izlənilmiş, Naxçıvan Dövlət Filarmoniyasının üzvləri tulum, zurna, balaban və tütəkdə milli rəqslərimiz olan “İnnabı”, “Yüzbiri” və “Oğuz” rəqslərini ifa etmişlər.

Şifahi xalq yaradıcılığı Azərbaycan ədəbi-mədəni xəzinəsinin mühüm tərkib hissəsidir. Xalqımızın məişət həyatını özündə əks etdirən folklorumuz çoxəsrlik tarixə malikdir. Baharın gəlişini təmtəraqla bayram edən əcdadlarımız Novruzla bağlı zəngin folklor nümunələri yaratmışlar. Tədbirdə Naxçıvan Qızlar Liseyinin şagirdlərinin hazırladığı “Bayram axşamı – axır çərşənbə” kompozisiyası maraqla qarşılanmışdır.

Naxçıvan Dövlət Uşaq Filarmoniyasının sazçalanlar ansamblı da musiqi sovqatı ilə bayram şənliyinə qoşulmuş, Naxçıvan Dövlət Universitetində təhsil alan xarici ölkə tələbələri “Tənzərə” yallısını təqdim etmişlər.

Ali Məclisin Sədri universitetin xarici tələbələri ilə görüşmüş, onları Novruz bayramı münasibətilə təbrik etmişdir.

Ardı 2-ci səhifədə





Tədbirdə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblının və Estetik Tərbiyə Mərkəzinin rəqs qruplarının çıxışları alqışlarla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram tədbirində çıxış edərək demişdir: Müstəqil ölkəmizdə, eləcə də muxtar respublikamızda Novruz bayramı geniş qeyd edilir, milli dəyərlərimiz, tarixi-mədəni irsimiz qorunub yaşadılır. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, Azərbaycan Respublikasının təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir.

Ali Məclisin Sədri demişdir: Novruz bayramı insanlarda yeni ovqat yaradır. Sabaha olan inamı artırır. Ölkəmizdəki mövcud sabitlik və inkişaf imkan verir ki, xalqımız bu il də özünün əziz bayramını quruculuq və əmin-amanlıq şəraitində qeyd etsin. Əminik ki, müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası Novruzla gələn yeni ildə daha böyük uğurlara nail olacaq və inkişafa qovuşacaqdır.



Ali Məclisin Sədri əziz bayram günündə şəhidlərimizin xatirəsini dərin ehtiramla yad etmiş, şəhid ailələrini, sabitliyimizi qoruyanları, torpaqlarımızın keşiyində dayanan əsgər və zabitləri, tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini Novruz bayramı münasibətilə təbrik etmiş, hər kəsə xoş bayram ovqatı arzulamışdır.

Sonra Ali Məclisin Sədri bayram tonqalını yandırmışdır.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyətinin izlərini yaşadan qədim milli musiqi alətlərinin bərpası diqqət mərkəzində saxlanılır, təhsil müəssisələrində musiqi dərsi tədris olunur. Tədbirdə Naxçıvan Musiqi Kollecinin "Qədim musiqi alətləri ansamblı"nın üzvləri "Bulağa gəlsin" xalq mahnısını, Naxçıvan Dövlət Filarmoniyasının Muğam Studiyası isə "Heyratı" ritmik muğamını ifa etmişdir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının təqdimatında "Çalıb çağıran ağac" tamaşasından səhnəciklər göstərilmişdir.

Əcəmi seyrəngahında ictimai-iaşə xidməti göstərilmiş, yerli müəssisələrin istehsal etdikləri məhsulların və müxtəlif sənətkarların əl işlərinin sərgi-satışı təşkil edilmişdi. Muxtar respublikada fəaliyyət göstərən məhdud məsuliyyətli cəmiyyətlər, kommersiya şirkətləri, istehsal və xidmət müəssisələri üçün geniş ərazidə pavilyonlar qurulmuşdu. Burada muxtar respublikamızda hazırlanan müxtəlif növ milli yeməklər, bayram şirniyyatları, şərbət və içkilər tədbir iştirakçılarına təklif olunmuşdur.

Ali Məclisin Sədri ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmış, xalq yaradıcılığı guşəsində sərgilənən müxtəlif əl işləri nümunələrinə baxmışdır.



Azərbaycan xalqının zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini onun məişəti və gündəlik həyat tərzi ilə sıx bağlı olan xalçaçılıq sənəti tutur. Müxtəlif həndəsi naxışlar və təsvirlərlə bəzədilən xalçalar xalqımızın zəngin bədii düşüncə tərzini və estetik zövqünü təcəssüm etdirir. Naxçıvan xalçaçılıq məktəbinin günümüzədək gəlib çatan dəyərli nümunələri özünəməxsus ornamentləri ilə seçilir. Bu gün evlərimizi bəzəyən, muzeylərimizdə hifz olunan cecim, kilim, palaz, xovlu və xovsuz xalça növləri insanlarımızın məişət həyatında mühüm yer tutmaqla yanaşı, tarixən bu ərazilərdə ticarətin inkişafına da mühüm töhfə vermişdir. Naxçıvanda xalçaçılıq sənəti bu gün yaşadılır və gənc nəsillərə öyrədilir. Bayram şənliyində Naxçıvan qrupuna aid olan xalçalar, bədii tikmə və parça nümunələri nümayiş olunmuş, hana qurulmuş, yun əyrilmiş, milli geyimli qızlar tərəfindən ilmələr salınmışdır.

Xalqımızın yaratdığı dekorativ-tətbiqi sənətin ən qədim və geniş yayılmış növlərindən biri də bədii oyma sənətidir. Hələ qədim dövrlərdə əcdadlarımız bu sənətin ilk nümunələrini yaratmışlar. Naxçıvanlı sənətkarlar bu gün də ağac üzərində oyma sənətini yaşadır və inkişaf etdirirlər. Xalqımızın min illər ərzində formalaşdırdığı bədii-estetik zövqünü özündə yaşadan bu əsərlər xalq yaradıcılığı sərgilərinin bəzəyinə çevrilmişdir. Şənlikdə əl sənətkarlarının Naxçıvan memarlıq məktəbinin elementlərinin əks olunduğu müxtəlif əl işləri nümayiş olunmuşdur.

Sakin Oruc Şabanov muxtar respublikada qədim adət-ənənələrimizin qorunub yaşadılmasının, Novruz bayramının geniş qeyd olunmasının yüksək dəyərə malik olduğunu bildirmiş, Ali Məclisin Sədrinə minnətdarlıq etmiş və bayram təbriklərini çatdırmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumlar tərəfindən hazırlanan əl işləri də sərgilənirdi. Baxış zamanı bildirilmişdir ki, bu il Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi məhkumların müxtəlif xalq sənətkarlığı sahələrində fəaliyyət göstərmələrinə stimul vermişdir. İstehsalat sahəsində hazırlanan əl işləri hər il muxtar respublikada keçirilən müxtəlif sərgilərlə yanaşı, həm də Novruz şənliklərində nümayiş olunur.

Bu gün muxtar respublikanın peşə məktəblərində digər sənət növləri ilə yanaşı, qədim sənətkarlıq sahələrinin gənc nəslə öyrədilməsi də diqqət mərkəzində saxlanılır.



Bu, məşğulluq sahəsində görülən işlərin tərkib hissəsi olmaqla yanaşı, xalqımızın məişətinin ayrılmaz parçası olan peşə sahələrinin yaşadılmasına da xidmət edir. Dulusçuluq, papaqçılıq və misgərlik sənətinin yaşadılması bu mənada xüsusi əhəmiyyətə malikdir. Tədbirdə dulusçu, papaqçı və misgərlik sənətlərinin incəlikləri nümayiş etdirilmişdir.

Misdən hazırlanmış ev və mətbəx əşyalarının muzeylərimizin dəyərli tarixi eksponatları sırasında yer alması muxtar respublikada misgərlik sənətinin çoxəsrlik tarixindən xəbər verir. Yüksək ustalıq və estetik zövq tələb edən misgərlik muxtar respublikada bu gün də yaşadılıb inkişaf etdirilən xalq sənəti sahələrindəndir. Sənətkarların mis üzərində qabartma üsulu ilə hazırladıqları müxtəlif dekorativ əşyalar, suvenirlər yurdumuza gələn qonaqların diqqətini cəlb edir.

Qədimdən bəri papaqçılıq sayılıb-seçilən sənətkarlıq növlərindən olmuşdur. Xalqımız tarixən papağa xüsusi hörmətlə yanaşmış, papaq baş geyimi olmaqla yanaşı, həm də mentalitet və igidlik rəmzi hesab olunmuşdur. Günümüzdə də bu qədim el sənətini yaşadan sənətkarlar vardır. Tədbirdə nümayiş etdirilən milli papaq nümunələri maraq doğurmuşdur.

Naxçıvanda ilkin əl əməyinə əsaslanan saxsı qab istehsalı tarixən inkişaf edərək dulusçuluq sənətinin formalaşmasına təkan vermişdir. Naxçıvanda ən qədim dövrdən dulusçu emalatxanaları fəaliyyət göstərmiş və bu sənət növü geniş ərazidə yayılmışdır. Aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan maddi-mədəniyyət nümunələri burada qədim dulusçuluq sənətinin formalaşmasını və inkişafını təsdiq edir. Bu sənət sənətkarlarımız tərəfindən bu gün də yaşadılır, dulusçuluq əşyaları və alətləri sərgilərdə daim öz yerini tutur.

Tədbirdə naxçıvanlı rəssamların kətan üzərində yağlı və sulu boya ilə çəkdikləri, dəri üzərində işləmə və vitraj üsulu ilə hazırladıqları əsərləri işlənmə texnikası, rəng çalarları və orijinal görünüşü ilə diqqəti cəlb etmişdir.

Naxçıvan zəngin təbiətə malikdir. Burada bitən bitkilər müalicəvi xüsusiyyətləri ilə seçilir. Hələ qədimdən müxtəlif bitki çayları təbabətdə geniş tətbiq olunmuş, zamanın sınağından çıxaraq müasir dövrdə də öz əhəmiyyətini qoruyub saxlamışdır. Tədbirdə "Farma-şah" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal olunan müxtəlif bitki çayları nümayiş olunmuşdur.

Bayram tədbiri musiqi və incəsənət kollektivlərinin ifasında konsert proqramı ilə davam etdirilmiş, Naxçıvan Dövlət Uşaq Teatrının aktyorları "Kosanın toyu" xalq oyununu təqdim etmişdir.

Ali Məclisin Sədri Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyində olmuş, Naxçıvanskilər nəslinin Azərbaycanın milli dövlətçilik tarixindəki xidmətlərini qeyd etmiş, Naxçıvan xanlığının tarixinin araşdırılması, muzeyin yeni eksponatlarla zənginləşdirilməsi və elmi-tədqiqat mərkəzi kimi fəaliyyətinin gücləndirilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə bayram şənlikləri keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinə, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinə Novruz bayramı münasibətilə sovqat aparılmışdır





Təbiətə yeni həyat, insanlara xoş arzular bəxş edən Novruz bayramı həm də mahiyyət etibarilə insanları dostluq, qardaşlıq, birlik, həmrəylik və xeyirxah amallar ətrafında birləşdirir. Novruz ərəfəsində küsülülər barışır, insanlar bir-birini yad edir, diqqətə, qayğıya və şəfqətə ehtiyacı olanlara xüsusi ehtiramla yanaşılır, bayram sovqatları aparılır.

Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Psixi Xəstəliklər Dispanserinə gəlmiş, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Novruz bayramı münasibətilə təbrik etmişdir. Ali Məclisin Sədri Naxçıvan şəhərinin bu ərazisində müasir xəstəxana şəhərciyinin yaradıldığını diqqətə çatdırmış, Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində səhiyyə xidmətinin hərtərəfli təşkili sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirmişdir.

Həkim Kəmalə Səfərova yaradılan şəraitə və göstərilən diqqətə görə kollektiv adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri xəstələrin müalicəsi və qidalanması ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrin qidalanmasına, vaxtlı-vaxtında tibbi müayinədən keçməsinə ciddi diqqət yetirilir. Səhiyyə ocaqlarında yaradılan şərait, lazımi dərman preparatları və müasir tibbi avadanlıqlarla təchizat səhiyyə xidmətinin nümunəvi təşkilinə imkan verir.

Sonra Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə bayram hədiyyələri paylanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Hərbi Hospitalına bayram sovqatı aparılmışdır





Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət-ordu-xalq birliyi bu gün muxtar respublikada davam etdirilir. Xalqımızın milli birliyinin rəmzinə çevrilən Novruz bayramında əsgərlərin yad edilməsi, onlara bayram sovqatı aparılması da bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır.

Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Hərbi Hospitalına gəlmiş, hərbi qulluqçuların sağlamlığı, müalicəsi, dərman təchizatı və qidalanması ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, son illər muxtar respublikada həyata keçirilən ordu quruculuğu, hərbi hissə və birləşmələrdə yaradılan müasir şərait şəxsi heyətdə ruh yüksəkliyi yaradıb. Əsgərlərin bütün qayğıları, o cümlədən sağlamlığının qorunması daim diqqət mərkəzində saxlanılır. Vaxtlı-vaxtında profilaktik tədbirlər görülür, hərbi qulluqçular mütəmadi tibbi müayinədən keçirilir. Hərbi hospitalın lazımi dərman vasitələri və tibbi ləvazimatlarla təminatı müayinə və müalicənin düzgün təşkilinə imkan verir. Burada xəstələrin qidalanması xüsusi nəzarətə götürülür və gigiyenik qaydalara tam əməl olunur.

Ali Məclisin Sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan hərbi qulluqçuların bayramlarını təbrik etmiş, onlara tezliklə sağalıb xidmət yerlərinə qayıtmalarını arzulamışdır.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Novruz bayramı muxtar respublikamızın bütün rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

## *Şərur rayonu*

***Xalqımız sevinc içərisindədir. Hər addımda duyulan bu sevincin təməlində bir neçə amil dayanır: 25 ildir ki, yaşadığımız müstəqillik, müstəqilliyin bəxş etdiyi böyük töhfələr, Azərbaycanın sürətli inkişafı və digər amillər. İlin bu günündə həmin amillərə biri də əlavə olunur: Novruz bayramı.***



Novruzun taleyini Vətənin taleyi ilə eyniləşdirən xalqımızın böyük oğlu Heydər Əliyev sevinclə bildirirdi ki, indi Novruz Azərbaycanın dövlət bayramıdır. Bu bayram ölkəmizdə müxtəlif tədbirlərlə qeyd edilir.

Bu il də muxtar respublikamızın hər yerində olduğu kimi, martın 19-da Şərur rayonunda da qədim el bayramı münasibətilə möhtəşəm şənlik keçirildi.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı "Novruz gəlir, yaz gəlir" adlı bayram şənliyinin aparıcıları tədbirə toplaşanları salamladıqdan sonra tədbir iştirakçılarına bir-birindən maraqlı musiqi nömrələri təqdim olundu.

Rayon Mədəniyyət Evi "Arpaçay" instrumental ansamblının müşayiətilə müğənnilərin oxuduqları şən mahnılar tamaşaçılara xoş ovqat bəxş etdi. Muxtar respublikamızı xalq yaradıcılığı festivallarında məharətlə təmsil edən Şərur rayonunun



birləşmiş yallı kollektivlərinin ifa etdikləri qədim xalq rəqsləri, uşaq musiqi məktəbləri şagirdlərinin maraqlı çıxışları da şənlik iştirakçılarına unudulmaz anlar yaşatdı. Novruzun əsas qəhrəmanlarından olan Kosa və Keçəl, Bahar qız məzəli-əyləncəli nömrələr və Novruz bayramının adətlərini nümayiş etdirdilər. El ağsaqqalı Dədə Qorqud və xalq qəhrəmanı Babək şənlik iştirakçılarını təbrik etdi, onlara əmin-amanlıq, xoş gün-güzəran, mehribanlıq, səmimiyyət arzuladı.

Üzlərindən sevinc yağan bir neçə tədbir iştirakçısı ilə həmsöhbət olduq. Rayonun Düdəngə kənd sakini Roza Mustafayeva Şərurun bu gün yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğuladı. İnsanların bayramı yüksək əhval-ruhiyyə ilə qeyd etmələrini də bununla əlaqələndirdi. Bildirdi ki, bu qədim yurd yeri hərtərəfli qayğı əhatəsindədir. İqtisadiyyat inkişaf etdirilir, yeni emal və sənaye müəssisələri yaradılır, quruculuq tədbirlərinin həcmi günü-gündən artır. Odur ki, Şərur gündən-günə gözəlləşir, insanların rifah halı daha da yaxşılaşır. Bütün bunlar şərurluların qurub-yaratmaq əzminə öz təsirini göstərir. Rayon sakinləri Şərurun daha da çiçəklənməsi naminə müxtəlif sahələrdə qazandıqları uğurları artırırlar.

Rayon Mərkəzi Xəstəxanasının həkimi Mirvəli Seyidov bildirdi ki, Şərur müasir Azərbaycan rayonunun canlı nümunəsidir. Bu, muxtar respublikada həyata keçirilən uğurlu quruculuq siyasətinin nəticəsidir. Şərur rayonunda da hər il müxtəlif təyinatlı obyektlərin açılışları olur. Yeni iş yerləri yaradılır. Şərurluların bütün bayramları belə ovqatda qeyd etmələri təbiidir.

Əsl bayram əhval-ruhiyyəsi ilə keçirilən Novruz şənliyi xalqımızın qədimliyini, ululuğunu, birliyini bir daha nümayiş etdirdi.

**Muxtar MƏMMƏDOV**

*Ardı 4-cü səhifədə*

## Babək rayonu




*Novruz bayramı münasibətilə muxtar respublikamızın ən böyük rayonlarından biri olan Babək rayonunda da bayram şənliyi keçirilib. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Babək qəsəbəsinin bayram tədbiri keçirilən meydanı bayramsayağı bəzədilmişdi.*

Tədbirin aparıcıları rayon sakinlərini Novruz bayramı münasibətilə təbrik edərək bildiriblər ki, təbiətin oyanmasının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olub, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş edib. Böyük mənəvi gücə malik Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Qoy bu Novruz elimizə-obamıza əmin-amanlıq gətirsin, süfrələrimizin bərəkətini artırsın, həmrəyliyimizi əbədi etsin. Qoy düşmənlərimiz bilsin ki, Azərbaycan xalqı var olduqca, onun tarixi və milli köklərə dayanan bayramları da var olacaq, bu birliyi və həmrəyliyi tezliklə işğal altında olan torpaqlarımızda da nümayiş etdirəcəyik.



Rayon sakinlərinin yüksək ovqatla izlədikləri şənlikdə bir neçə babəkli ilə həmsöhbət olduq. Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev dedi ki, Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, hər bir insanın, hər bir vətəndaşın bayramıdır, ulu babalarımızdan əsrlərdən-əsrlərə keçib gəlmiş əziz bayramdır. Bu bayram həm millət, həm xalq, həm də dövlət bayramıdır. Bu bayramı bütün başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və böyük cəsarəti ilə yaradılan bu rayon Novruzu yüksək təntənə ilə qeyd edir. Çünki bu rayonda Heydər Əliyev quruculuq siyasətinin izləri saysız-hesabsızdır və Babəkin müasir yaşayış məntəqəsinə çevrilməsində bu, başlıca amildir.

Rayon sakini Rövşən Eminov bildirdi ki, babəklilər hər zaman olduğu kimi, bu il də bayramı böyük sevinclə qeyd edirlər. Bunun səbəbi odur ki, ildən-ilə dövlətimizin gücü daha da artır. Hər yerdə böyükhəcmli quruculuq, abadlıq işləri aparılır, kəndlərin siması dəyişir. İnsanların illərlə xəyallarında canlandırdıqları arzular reallığa çevrilir, problemləri həll olunur.

Bayram tədbirində mədəniyyət və incəsənət ustalarının ifalarında Novruzu, baharı vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb. Xalq çalğı alətləri, nağaraçalanlar və sazçalanlar ansambllarının ifaları, rayon Mədəniyyət Evinin yallı qrupunun təqdim etdikləri rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

✍ Sara ƏZİMOVA

## Ordubad rayonu

*Ordubadda Novruz şənliyi rayon mərkəzinin tədbirlər meydanında keçirildi. Bayram tədbirində çıxış edən aparıcılar bildirdilər ki, əsrlərin sınağından çıxaraq milli ruhumuzu, dəyərlərimizi özündə yaşadan Novruz qədimdən bəri insanlar arasında həmrəyliyin, mərhəmət və mehribanlığın təməli olub. Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs etiqadına söykənməklə, özündə böyük bədii-estetik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir.*





Vurğulandı ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Novruz bayramına dövlət bayramı statusu verildi. Ulu öndər Heydər Əliyev bu bayramla bağlı fikirlərini belə ifadə etmişdir: ***"Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Xalqımız çoxəsrlik tarixində böyük sınaqlardan keçib. Tariximizin ağır, çətin dövrləri olubdur. İnsanlar ağır günlər, çətin illər yaşayıblar. Ancaq bunlara baxmayaraq, Novruz bayramını heç kəs heç vaxt unutmayıb. Əksinə, Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır".***

Bayram tədbirində iştirak edən bir neçə rayon sakini ilə həmsöhbət olduq. Həbib İsmayılov dedi:

– Novruzun gəlişi hər il el-obamızda əsl şənliyə çevrilir. Ulu babalarımızın əsrlərlə yaşatdığı bu bayram ölkəmizin hər yerində olduğu kimi, Ordubadda da böyük sevinc hissi ilə qeyd olunur. Hələ keçmiş SSRİ dövründə Novruz bayramının keçirilməsinə icazə verilmədiyi vaxtda bu bölgədə bayram hər kəs tərəfindən böyük sevinclə qeyd edilib.

Mahir Şıxəliyev: – Novruz bizim ən əziz bayramımızdır. Bu bayramda küsülülər barışır, böyüklərimiz ziyarət olunur, qohum-əqrəba bir-birinə bayramlaşmağa gedir. Bu bayramla bağlı çox sayda adət-ənənələr mövcuddur ki, bu ənənələr bu gün də böyük ehtiramla qorunur və yaşadılır.




Rayon ziyalılarından Lətafət Əliyeva və Afiyəddin Əsədov qeyd etdilər ki, muxtar respublikamızın hərtərəfli inkişaf və tərəqqisi bağlar diyarı olan Ordubada da yeni həyat bəxş edib. Həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində aparılan kompleks quruculuq tədbirləri bağlar diyarının simasını tamamilə dəyişdirib, onu müasir rayona çevirib. Bu da Novruz şənliklərinin daha yüksək əhval-ruhiyyə və ovqatda keçirilməsinə imkan verib.

Tədbirdə iştirak edənlərə xeyir-dua vermək üçün el ağsaqqalı Dədə Qorqud meydana gəldi, öz xeyir-duasını verdi. Xalqımıza əmin-amanlıq, xoş günlər arzuladı.

Sonra bayram tonqalı yandırıldı. Tonqal ətrafında milli rəqslərimiz oynanıldı, Novruza aid şeirlər söyləndi.

Rayonun mədəniyyət evlərinin folklor qruplarının çıxışları alqışlarla qarşılandı.

"Xanbəzəmə" oyun-tamaşası Ordubadda hər il keçirilən Novruz şənliklərində təqdim olunan əsas ənənələrdəndir. Budur, musiqinin müşayiəti ilə xan və vəzir, vəkili meydana daxil oldular. Kosa ilə Keçəl də şənliyə dəvət edildilər. Onların təqdim etdikləri kompozisiya tədbir iştirakçılarında yüksək ovqat yaratdı. Qoçların döyüşünə də maraqla baxıldı.

Tədbirdə rayon Mədəniyyət Evinin "Dübəndi" instrumental ansamblı üzvlərinin ifasında Novruza, yazın gəlişinə həsr olunan mahnılar səsləndirildi.

✍ Səbuhi HƏSƏNOV

## Culfa rayonu



*Əsrlərin sınağından çıxmış milli dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz bayramı Culfa rayonunda da qeyd edildi.*

Tədbirin aparıcıları milli bayramımız olan Novruzun minilliklərin sınağından keçərək bu gün əsl birlik bayramına çevrildiyini və ümumxalq bayramı kimi hər il böyük təntənə ilə qeyd olunduğunu bildirdilər. Vurğulandı ki, Novruz hər bir azərbaycanlı üçün əziz olan, milli adət və ənənələrimizi yaşadıb dövrümüzə gətirib çıxaran, eləcə də bu gün bizi birləşdirən, daha da həmrəy edən bayramdır. Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Ana təbiətə sonsuz sevginin parlaq ifadəsi olan bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir.

Ulu Dədə Qorqudun müdrik kəlamları, alqış və xeyir-duası ilə başlanan şənlikdə qılınc-qalxanlı cəngavərin keşiyini çəkdiyi tonqal alovlandı, xalq yaradıcılığı nümunələri sərgiləndi.

Tədbir əsnasında həmsöhbət olduğum rayon sakini Alıyar Quliyev



dedi ki, Novruz arzu dolu sabahlara açılan qapı, hər bir azərbaycanlının, hər bir insanın, hər bir ailənin bayramıdır, bizim müstəqil Azərbaycanın bayramıdır. Müstəqilliyimiz Culfa rayonunu müasir bölgəyə çevirib. Rayon mərkəzində, kənd yaşayış məntəqələrində tikinti-quruculuq tədbirləri vüsət alıb. Bu da culfalılara böyük sevinc və fərəh bəxş edib. Onlar Novruzu belə hisslərlə qarşılayırlar.

Novruz bayramı ilə bağlı arzularını, ürək sözlərini dilə gətirənlərdən biri də rayon sakini Yadulla Novruzov oldu. O dedi ki, zəngin mənəvi dəyərlərimizə söykənərək insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq münasibətlərini bərqərar edən Novruz bayramı xalqda gələcəyə nikbinliklə, ümidlə baxmaq hissləri doğurur. Hər il olduğu kimi, Culfa rayonunun sakinləri bu il də Novruz bayramını qeyd etmək üçün bir araya gəliblər. Burada ictimaiyyətin nümayəndələri iştirak edirlər. Bu, yaxşı ənənədir. Yenə Novruzu bol ruzi, bərəkətlə qarşılayırıq. Ruzi-bərəkətimizin bolluğu muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonuna da göstərilən davamlı dövlət qayğısının bəhrəsidir.

Bahar qız, Kosa və Keçəlin iştirakı və duzlu-məzəli zarafatları ilə keçən bayram tədbirini mahnı və rəqs kollektivlərinin töhfələri rövnəqləndirdi. "Yallı", "Tello" və digər milli rəqslərimizin usta rəqqaslar tərəfindən ifası tamaşaçılarda xoş ovqat yaratdı. Müğənnilərdən Qurban Nəcəfov, Məhərrəm Quliyev, Rəşad Nəcəfov tərəfindən səsləndirilən, baharı vəsf edən mahnılar şənlik iştirakçılarında bayram əhval-ruhiyyəsi yaratdı. Bayram Əliyevin sazla ifa etdiyi mahnılar tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Şənliyə toplaşan tamaşaçıların sürəkli alqışları ilə qurşaq tutub güclərini nümayiş etdirən gənc pəhləvanlar bayrama əsl festival abhavası qatdılar.

✍ Kərəm HƏSƏNOV

Ardı 5-ci səhifədə

## Kəngərli rayonu

***Kəngərli rayonunda keçirilən təntənəli bayram şənliyi tədbir iştirakçılarının yaddaşlarında uzun müddət yaşayacaq. Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında keçirilən bayram şənliyində rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.***



Novruz bayramı münasibətilə bəzədilmiş park tamaşaçıların zövqünü oxşayırdı. Rayon Mədəniyyət və Turizm Şöbəsinin “Kəngər” instrumental ansamblının, uşaq musiqi məktəblərinin musiqi kollektivlərinin, folklor qruplarının, “Sazçalan qızlar” ansamblının, Bahar qızın, rayon idmançılarının çıxışları, at yarışı, xoruz döyüşdürmələri, Keçəl və Kosanın nümayiş etdirdiyi oyunlar tədbirə şənlik qatdı. Bayram şənliyində yerli ərzaq məhsullarından və müxtəlif əl işlərindən ibarət sərgi bu rayonun həyat tərzi barədə hərtərəfli bilgi vermək baxımından diqqəti çəkirdi.



Məlumat üçün bildirək ki, Novruz bayramı Kəngərli rayonu, burada yaşayan insanlar üçün xüsusilə əlamətdardır. Çünki bu rayon Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılıb. Bu barədə bayram şənliyində ətraflı məlumat verildi. Tədbir iştirakçıları ilə də həmsöhbət olduq. Azərbaycan Respublikasının Əməkdar müəllimi Tamaşa Babayeva bildirdi ki, ötən on iki il müddətində rayon özünəməxsus inkişaf yolu keçib, tərəqqiyə qovuşub. Rayon mərkəzi və kəndlər yeni yanaşma prinsipi ilə qurulub. Müasir memarlıq, yüksək dizayn Kəngərlinin simasını başdan-başa dəyişib. Bu gün rayonun elə bir yaşayış məntəqəsi yoxdur ki, orada kompleks quruculuq tədbirləri aparılmasın. Ümumilikdə, Kəngərli rayonu təşkil ediləndən bu günədək bölgədə yüzdən artıq obyektin açılışı olub.

Rayon Mədəniyyət Evinin işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Tofiq Rüstəmov dedi ki, rayon sakinləri bu günlərin qədrini bilir, rayon iqtisadiyyatının güclənməsinə öz töhfələrini verir, bölgədə həyata keçirilən quruculuq işlərində fəal iştirak edirlər. Kəngərli sakinləri öz fəallıqları ilə dövlətimizin qayğısına cavab verməyə çalışır, uğurlu qələbələr qazanırlar. Bütün sahələrdə qazanılan uğurlar, əldə olunan nailiyyətlər kəngərlililərin əhval-ruhiyyəsini daha da artırır. Novruz bayramı şənliklərində hər kəsin çöhrəsində bu yüksək əhval-ruhiyyə, xoşbəxtlik və sevinc hissləri aydın duyulurdu.

✍ **Ceyhun MƏMMƏDOV**

## Şahbuz rayonu

***Şahbuz Naxçıvan Muxtar Respublikasının füsunkar təbiətli bölgələrindəndir. Novruzun gəlişi ilə bu gözəllik də sanki birə-on artmışdı. Bayramın ilıq yaz havasında hər kəs təbəssümlə bir-birini salamlayır, bayramını təbrik edirdi.***

Rayonda keçirilən budəfəki Novruz bayramı şənlikləri də öz rəngarəngliyi ilə yadda qaldı. El ağsaqqalı Dədə Qorqudun xeyir-duaları ilə bayram tonqalı yandırıldıqdan sonra Şahbuz Rayon Mədəniyyət Evinin “Batabat” ansamblının solistlərindən Əli Davudi, Gülyanaq Fərzəliyeva və başqalarının ifasında səslənən mahnılar alqışlarla qarşılandı. Bundan sonra Salvartının zirvəsindən əks-səda verən qara zurnanın səsi altında qızışan meydanda çıxış edən rəqs kollektivlərinin, uşaq musiqi məktəblərinin nağaraçılar qrupunun ifaları baxmağa dəyərdi. Şahbuzda xalqımıza aid qədim Novruz adət-ənənələri, folklor nümunələri çox yaxşı qorunub saxlanılmışdır. Bayram iştirakçıları Kosa və Keçəlin duzlu-məzəli çıxışlarından sonra rayonun kəndlərində fəaliyyət göstərən folklor qruplarından “Hodu-hodu”, “Çöpüdü” xalq oyunları ifaçılarının çıxışlarına, gələcəyin aşıqları olacaq sazçalan uşaqların bulaq suyu kimi saf zəngulələrinə maraqla tamaşa edirdilər. Şahbuz Rayon Uşaq-gənclər idman məktəbi şagirdlərinin güc və çeviklik nümayiş etdirən müxtəlif idman növləri üzrə nümunəvi çıxışları, qədim xalq adətləri, milli mətbəx, əl işləri və sənətkarlıq nümunələrinin sərgiləri rayonda təşkil olunmuş Novruz bayramına yaraşıq verirdi. Bayram günündə şəhər parkında təşkil olunmuş geniş iaşə və ticarət xidmətləri, qoğallı, paxlavalı çay süfrəsi burada yazı birgə qarşılayan şahbuzlular üçün əsl asudə vaxt və məzmunlu istirahət ab-havası yaratmışdı.





Elə buradaca həmsöhbət olub, bayramlaşdığımız Şahbuz şəhər sakini Qadir Rəcəbov bu bayramı ailəlikcə böyük sevinclə qarşıladığını dedi. Niyə də olmasın! Ötən Novruzdan bəri yaşadıqları şəhər daha da genişlənib gözəlləşdi, Şahbuzun ən görkəmli yerində Bayraq Meydanı salındı, uşaq bağçası istifadəyə verildi, yeni asfalt yollar çəkildi. Yeni içməli su xətləri də çəkilir, güzəranımız günü-gündən yaxşılaşır. Elə Daylaqlı kənd sakini Vaqif İsmayılov da bu fikirləri paylaşdı. Dedi ki, muxtar respublikamızdakı genişmiqyaslı quruculuqdan yaşadığı kəndə də pay düşüb. Bu, onlar üçün ən böyük hədiyyədir. Müasirləşən kənddə yaşamaqla təqaüd yaşında olsa da, özünü gənc və xoşbəxt sayır. Bu da onun üçün ikiqat bayramdır, – deyir həmsöhbətim.

✍ **Əli CABBAROV**

## Sədərək rayonu



*Xalqımızın xeyirxahlıq, mehribanlıq və qonaqpərvərlik kimi gözəl hisslərini təqdim edən ən əziz bayramı olan Novruzun gəlişi muxtar respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonunda da geniş qeyd olundu.*

Bayram tədbirində bildirildi ki, Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın mənəvi dünyasını, milli düşüncə tərzini, məfkurəsini, milli varlığını Novruz qədər bütün zənginliyi ilə özündə ifadə edən ikinci bir bayram təsəvvür etmək çətindir. Xalqımızın böyüklüyü ondadır ki, heç bir qadağa ona Novruzu unutdura bilmədi. Xalqımız ən çətin zamanlarda belə, öz əziz bayramını qoruyub yaşadıb, bu günümüzə gətirib çatdırıb.

Sədərək rayonunun mədəniyyət kollektivləri xalqımızın Novruz adət-ənənələrini, qədim el sənətkarlığından nümunələr nümayiş etdirdilər.

Sonra tədbir iştirakçıları Novruz bayramının əsas personajları olan Kosa və Keçəlin sərgüzəştlərinə tamaşa etdilər. Kosa Keçəllə muxtar respublikamızı qarış-qarış gəzdiklərini, qədim Naxçıvanda böyük quruculuq işləri aparıldığını, sərhəd bölgəsi Sədərəyə də bu quruculuqdan böyük pay düşdüyünü dedi. Dədə Qorqud da xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Sədərək Rayon Uşaq Musiqi Məktəbi şagirdlərinin rəqsləri, rayon Mədəniyyət Evinin solistlərinin baharı, Azərbaycanı, Naxçıvanı tərənnüm edən mahnıları bayram şənliyi iştirakçılarında xoş ovqat yaratdı.



Tədbir iştirakçıları sonra xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə baxdılar. Sərgidə xalq sənətinin ağacişləmə, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, daşyonma sahələrini özündə əks etdirən nümunələr şənlik iştirakçıları tərəfindən maraqla qarşılandı.

Şənlik əsnasında rayon sakinləri ilə də görüşüb həmsöhbət olduq. Ömrünün 80-ci ilini geridə qoymuş kənd ağsaqqalı Teymur Vəliyev dedi ki, 20 ildən çoxdur, Sədərək sakinləri bütün bayramları, eləcə də Novruz bayramını əmin-amanlıqda qarşılayır, insanlar heç bir şeydən çəkinmədən bayram tonqalları qalayır, şənlik edirlər. Şən mahnıların səsi sərhədin o tayına, mənfur düşmənin yaşayış məntəqələrinə qədər gedib çıxır. İllər öncə Heydərabad qəsəbəsinin ərazisində nəinki tonqal qalamaq, hətta sərbəst şəkildə gəzməkdən belə söhbət gedə bilməzdi. İndi isə vəziyyət başqadır. Düşmən artıq ordumuzun güvvəsini yaxşı bilir. Bilir ki, onlar tərəfindən atılan hər hansı bir səhv addım ağır nəticələrə gətirib çıxara bilər. Bugünkü Novruz şənliyində insanların bu qədər arxayınlıqla iştirak etməsi bir daha onu göstərir ki, sədərəklilər dövlətimizin gücünə, qüdrətinə tam əmindirlər. Elə bu əminlik də rayon sakinlərini torpağa, yurda daha sıx tellərlə bağlayır, onları daha yaxşı işləməyə, Sədərəyi daha da çiçəkləndirməyə sövq edir.

Rayon sakinlərindən Famil Hüseynzadə və Həsən Dostəliyev də öz bayram təəssüratlarını bizimlə bölüşdülər. Həmsöhbətlərimiz dedilər ki, Novruz yeni gün, yeni həyat mənasını daşımaqla həm də azərbaycanlıların yeni ilidir. Bu baxımdan sədərəklilər də Novruz bayramını böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Çünki qarşıdan gələn hər ildə Sədərəkdə yeni-yeni quruculuq ünvanları, yollar, məktəblər, bağçalar fəaliyyətə başlayır, yeni iş yerləri açılır, əhalinin gün-güzəranı yaxşılaşır. Hər bir sədərəkli göstərilən qayğıya görə dövlətimizə minnətdardır.

Bir sözlə, Sədərək rayonunda keçirilən Novruz şənliyi sakinlərdə əsl bayram əhval-ruhiyyəsi yaradıb.

✍ **Səbuhi HÜSEYNOV**

## Naxçıvan şəhərindəki Gənclər Mərkəzində tur-aksiya iştirakçıları ilə görüş olub

***Martın 19-da Naxçıvan şəhərindəki Gənclər Mərkəzində “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiya çərçivəsində muxtar respublikada səfərdə olan məktəblilərlə görüş keçirilib.***

Əvvəlcə şagirdlər Gənclər Mərkəzi ilə tanış olublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev tur-aksiya iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edib.

Tur-aksiyanın əhəmiyyətini vurğulayan Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiya böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların dünyagörüşünün formalaşması baxımından böyük əhəmiyyətə malikdir.



Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov Bakı şəhərindən olan məktəblilərin muxtar respublikaya səfərinin onların bu qədim diyarın tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmalarına geniş imkan yaratdığını bildirib. Nazir deyib ki, tur-aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasından da Bakı şəhərinə 150 məktəbli səfər edib.

Tədbirin sonunda tur-aksiya iştirakçılarına hədiyyələr təqdim olunub.

Həmin gün tur-aksiya iştirakçıları Kəngərli rayonuna səfər edib, buradakı istehsal və mədəniyyət müəssisələri, tarixi abidələrlə tanış olublar.

Martın 19-da “Ölkəmizi tanıyaq” tur-aksiyanın iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.

Bakı şəhərində səfərdə olan naxçıvanlı şagirdlər həmin gün muxtar respublikaya qayıdıblar.

✍ **Rauf ƏLİYEV**

# Azərbaycanın elm məbədi



***Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti xalqımızın elmi potensialının formalaşmasında mühüm mərhələ təşkil edir. Ötən əsrin əvvəllərində Azərbaycanın iqtisadiyyatını, təbii sərvətlərini, tarixini, fəlsəfəsini və incəsənətini öyrənmək üçün yaradılan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti elmi-təşkilati işlərin əsasını qoymuşdur. SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsinin təşkil olunmasından sonra isə burada rus alimləri ilə yanaşı, Azərbaycan alimləri də fundamental elmi araşdırmalar aparmışlar. 1935-ci ildə şöbə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına çevrilmiş, kimya, geologiya, botanika, fizika və humanitar elmlər sahəsində sanballı elmi tədqiqatların aparılması Azərbaycan SSR Elmlər Akademiyasının təsis olunmasına gətirib çıxarmışdı.***

SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli və Azərbaycan Xalq Komissarları Sovetinin həmin ilin 27 mart tarixli xüsusi qərarı ilə İttifaq Akademiyasının Azərbaycan filialı Azərbaycan Elmlər Akademiyasına çevrilmişdir. O vaxt akademiya özündə dörd bölməni, on altı elmi-tədqiqat institutunu, iki elmi-tədqiqat şöbəsini və üç muzeyi birləşdirirdi. Akademiyanın ilk heyəti 15 nəfərdən ibarət olmuşdur. Elmlər Akademiyasının tərkibində 4 bölmə, 16 elmi-tədqiqat institutu, 2 elmi-tədqiqat şöbəsi və 3 muzey vardı. Bunlardan başqa, Naxçıvanda, Gəncədə, Xankəndində elmi bazalar mövcud idi. Akademiyanın ilk heyətinə Ü.Hacıbəyov, S.Vurğun, M.İbrahimov, Y.Məmmədəliyev, M.Qaşqay, A.Qrossheym, S.Dadaşov, İ.Yesman, M.Mirqasımov, Ş.Əzizbəyov, Ə.Əlizadə, M.Topçubaşov, M.Hüseynov, H.Hüseynov və İ.Şiroqorov daxil idi.

Akademiyanın tarixini şərti olaraq bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ 1945-1970-ci illəri əhatə edir və əsasən onun formalaşması dövrü kimi xarakterizə olunur. Akademiya tarixində ən parlaq mərhələ 1970-1985-ci illərə təsadüf edir. Həmin dövrdə ümummilli lider Heydər Əliyevin qayğısı nəticəsində elmi tədqiqatların əhatə dairəsi genişlənmiş, güclü kadr potensialı və texniki arsenal yaradılmışdı. Bu illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı artaraq 15 min nəfərə, o cümlədən elmi işçilərin sayı 5 minə çatmışdı.

1987-1993-cü illərdə səriştəsiz insanların ölkəyə rəhbərlik etmələri bir sıra sahələrdə olduğu kimi, elmin inkişafının da zəifləməsinə, kadr potensialının aşağı düşməsinə, təcrübəli və savadlı elm adamlarının ölkəni tərk etməsinə səbəb oldu. Lakin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu reallığa çevirdi, akademiyanın hərtərəfli inkişafı təmin olundu. Dahi şəxsiyyətin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına “Milli Elmlər Akademiyası” statusu, 2003-cü il 4 yanvar tarixli Fərmanına əsasən isə müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verilmişdir. Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyasının hərtərəfli inkişafı üçün hüquqi zəmin yaranmış, akademiyanın fəaliyyət dairəsi genişlənmiş, səlahiyyətləri artmışdır.

Ümummilli liderin elmin inkişafı ilə bağlı müəyyənləşdirdiyi siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, insan kapitalının yaradılması sahəsində ardıcıl tədbirlər həyata keçirilir, elmi potensialın qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqaməti kimi götürülür. Bu sahədə görülən işlərin nəticəsidir ki, 2003-cü ildən ötən dövr akademiyanın fəaliyyətində və Azərbaycan elminin inkişafında yeni mərhələ kimi dəyərləndirilir. “2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya”nın həyata keçirilməsi bu mənada mühüm əhəmiyyətə malik olmuşdur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının elmi işçilərindən 560-ı elmlər doktoru, 2046-sı isə fəlsəfə doktorudur. 2014-cü ilin iyununda AMEA-ya 26 akademik, 50 müxbir üzv seçilmiş, beləliklə də, akademiklərin sayı 74-ə, müxbir üzvlərin sayı isə 120-yə çatdırılmışdır.

Ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradılmışdır. Qısa müddət ərzində maddi-texniki baza möhkəmləndirilmiş, kadr potensialı təkmilləşdirilmişdir. Naxçıvan bölməsinin yaradılması zəruriliyindən bəhs edən ümummilli liderimiz demişdir: ***“Mən bununla Naxçıvan Muxtar Respublikamızın indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var”.***

AMEA Naxçıvan Bölməsinin tərkibində “Tarix, Etnoqrafiya və Arxeologiya”, “İncəsənət, Dil və Ədəbiyyat”, “Təbii Ehtiyatlar”, “Bioresurslar” institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərir. AMEA Naxçıvan Bölməsi muxtar respublikada elmi mühitin canlanmasına və elmin inkişafına əsaslı töhfə verir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və “Naxçıvan” Universitetinin professor-müəllim heyəti də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edirlər.

Elmin inkişafı bilavasitə yüksəkixtisaslı elmi kadrların hazırlanmasından asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrlar hazırlanır. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksəkixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində 3 ixtisas üzrə Dissertasiya Şurası yaradılmışdır. Fəaliyyəti dövründə bu şurada 75 nəfər fəlsəfə doktoru, o cümlədən 10 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2013-cü ildən həmin şuraya doktorluq Müdafiə Şurası səlahiyyəti verilmişdir. Hazırda muxtar respublikada 35 elmlər doktoru, 188 fəlsəfə doktoru fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007 və 2014-cü illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü isə müxbir üzv seçilmişdir.

AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi nəşrlərində dərc edilir. Son illər muxtar respublika tədqiqatçılarının 208 monoqrafiyası, 750-yə yaxın kitabı, 320-dən çox dərslik və tədris vəsaiti, 18 mindən artıq məqalə və tezisi nəşr edilmişdir.

Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan: tarixi və abidələri”, “Naxçıvanın tarixi atlası”, “Naxçıvanın folklor antologiyası”, “Naxçıvan teatrının salnaməsi”, Naxçıvan Muxtar Respublikası flora və faunasının Qırmızı kitabları, “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası”, “Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: mövcud vəziyyəti və perspektivləri”, “Naxçıvan dialektləri”, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, “Naxçıvan arxeologiyası”, “Naxçıvan tarixi” çoxcildliyi və digər əsərlər elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Bundan başqa, Naxçıvanın arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji müxtəlifliklər, təbii sərvətləri dərin araşdırmalara cəlb edilmiş, elmi konfrans və simpoziumlar keçirilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvanın tarixi və arxeologiyası sahəsində sanballı nəticələr əldə edilmiş, Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasının 5 min ildən artıq tarixə malik olması, Kür-Araz və Boyalı qablar mədəniyyətinin bu ərazidə formalaşması, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan ilk duz mədəni olması elmi təsdiqini tapmışdır.

*Naxçıvan ziyalıları, elm adamları fəaliyyətləri ilə bundan sonra da Azərbaycan elminin hərtərəfli inkişafına öz layiqli töhfələrini verəcəklər.*

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi**

***YUNESKO-nun 1999-cu ildə keçirilən 30-cu iclasında mart ayının 21-i “Beynəlxalq Poeziya Günü” elan edilmişdir. Azərbaycanda “Beynəlxalq Poeziya Günü” 2007-ci ildən qeyd olunur.***

*21 mart Beynəlxalq Poeziya Günüdür*

# Azərbaycan poeziya sənəti qədim tarixə və zəngin ənənələrə malikdir

Poeziya ən qədim zamanlardan başlayaraq insanın mənəvi ehtiyacına çevrilmiş, onun arzu və istəklərinin, duyğu və düşüncələrinin, sevinc və kədərinin poetik tərcümanı olmuşdur. Dünyanın bir sıra mədəni xalqlarının ədəbiyyatı kimi, bəşəriyyətin söz xəzinəsini zənginləşdirən Azərbaycan poeziyası da xalqımızın tarixi qədər qədim, mənəviyyatı qədər zəngindir. Azərbaycan şairlərinin yaratdıqları əsərlər Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatına güclü təsir göstərərək özünəməxsus poeziya məktəbi formalaşdırmışdır.

Azərbaycan dilinin axıcılığı, ahəngdarlığı imkan verir ki, bu dildə çox səlis, rəvan poetik nümunələr yaradılsın. Məhz elə ona görə də poeziyamızın ilk nümunələri xalq yaradıcılığında özünü aydın göstərə bilmişdir. Ağılar, bayatılar, holavarlar, sayaçı sözləri, əmək nəğmələri, digər mövsüm-mərasim nəğmələri Azərbaycan poeziya sənətinin ilk nümunələridir. Bu nümunələrdə xalqımızın adət-ənənələri, məişəti, düşüncəsi, ağrı-acısı, sevinci, mübarizə əzmi, vətənpərvərliyi poetik formada əks olunmuşdur. Müğləsi Marağayi, İsmayıl Yəsar, Musa Şəhavət, Qətran Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi kimi ölməz korifeylərin yüksək sənətkarlıqla yazılmış əsərləri poeziya sənətimizi zənginləşdirməklə yanaşı, sonrakı dövrlərdə bir sıra qüdrətli şairlərimizin yaradıcılığının formalaşmasına da təsir göstərmişdir. İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai kimi şairlərimiz anadilli poeziyamızın inkişafında müstəsna rol oynayan qüdrətli şairlər kimi dilimizin poetik imkanlarını üzə çıxarmışlar. XVII-XVIII əsrlərdə yazıb-yaradan şairlərimiz klassik üslubda, həm də xalq yaradıcılığı formasında ədəbiyyatımıza təzə nəfəs gətirmişlər. Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin yaradıcılığı yazılı ədəbiyyatımızda poetik düşüncəni geniş mənada xalqın yaddaşına yazmışdır. Aşıq Qurbaninin, Xəstə Qasımın, Sarı Aşığın, Abbas Tufarqanlının, Aşıq Alının, Aşıq Ələsgərin qoşma və gəraylıları, təcnisləri bir daha təsdiq edir ki, Azərbaycan poeziyası çox zəngin ənənələrə malik olan bir sənət çeşməsidir.

XIX-XX əsrlərdə yaranan Azərbaycan poeziyasında daha çox milli məfkurə ön planda olmuş, şairlər bu istiqamətdə dəyərli nümunələr yaratmışlar. Bu dövr Azərbaycan poeziya sənətində Hüseyn Cavid, Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Xəlil Rza, İslam Səfərli kimi görkəmli şairlər öz dəst-xətti ilə seçilir. Ölkəmiz ikinci dəfə müstəqillik qazandıqdan sonra yazıçı və şairlərimizin də poetik düşüncə dairəsi genişlənmiş, mövzu müxtəlifliyi artmış, bədii fikrin nadir hadisəsi olan poeziya xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş, inkişafın yeni mərhələsinə yüksəlmişdir. Şairlərimizin yaradıcılığında xalqımızın duyğu və düşüncələri, azadlıq arzuları, söz və fikir azadlığı, milli istiqlal uğrunda savaş, insanın mənəvi azadlığı, azad düşüncə, xalqın oyanışı kimi bir sıra mühüm məsələlər öz poetik əksini tapmışdır.

Ədəbiyyatımıza böyük diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev həm klassik ədəbiyyatımızı, həm də müasir ədəbiyyatımızı həmişə eyni məhəbbətlə təbliğ etməkdən yorulmurdu. ***“Azərbaycan poeziyası, bədii ədəbiyyatı uzaq keçmişə, dərin köklərə bağlıdır. Onun tarixi xalqın bədii şüurunun yaranması və inkişafı tarixidir”,*** – deyən ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq klassik və müasir şairlərimizin yubileylərinin keçirilməsinə, onların əzəmətli heykəllərinin ucaldılmasına, əsərlərinin çap olunmasına, xarici dillərə tərcümə edilməsinə xüsusi diqqət və qayğı göstərmişdir. Həmin dövrdə Azərbaycanda ədəbiyyat günlərinin, Azərbaycan şairlərinin Moskvada yubileylərinin keçirilməsi, şair və yazıçılarımızın Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adlara, SSRİ-nin nüfuzlu dövlət mükafatlarına layiq görülmələri bunu bir daha təsdiq edir. Ədəbiyyatımıza, poeziya sənətinə göstərilən bu qayğı ölkəmiz müstəqillik qazandıqdan və ulu öndər ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da davam etdirilmişdir. Bu gün ölkə başçısı cənab İlham Əliyev ədəbiyyatın inkişafına xüsusi qayğı göstərir. Son illər onlarla görkəmli şair və yazıçının yubileyləri dövlət səviyyəsində qeyd edilmiş, əsərləri yüksək tirajlarla çap olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Yazıçılar Birliyinin 80-ə yaxın üzvü yaşayıb-yaradır. Şair və yazıçılarımız həmişə böyük diqqət və qayğı ilə əhatə olunub. Son 8 ildə şair və yazıçılarımızın, filoloq alimlərimizin 500-dən artıq kitabı nəşr olunmuş, 12 ədəbi almanax oxucuların ixtiyarına verilmişdir. Bu almanaxlar içərisində “Dünyanın bəzəyi”, “Dostlar töhfəsi”, “Uşaqlar və Günəş”, “Naxçıvanın şeir çələngi”, “Təmsillər”, “Şeirlər və hekayələr”, “Poema və pyeslər”, eyni zamanda şair və yazıçılarımızın dünya ədəbiyyatından etdiyi tərcümələrdən ibarət “Dünyaya pəncərə” adlı 3 kitab oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Muxtar respublikamızda yaşayıb-yaradan şair və yazıçılarımıza dövlətimiz tərəfindən həmişə yüksək diqqət və qayğı göstərilir, onların əməyi yüksək qiymətləndirilir. Şair və yazıçılarımız orden və medallara, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, Prezident mükafatına layiq görülmüşlər. Muxtar respublikamızda Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş 22 şair və yazıçı vardır.

Bu gün qədim diyarımızda yaşayıb-yaradan şair və yazıçılarımız çalışırlar ki, onlara göstərilən yüksək diqqət və qayğı müqabilində daha gözəl bədii əsərlər yaratsınlar. Son illərdə yazılan şeir və poemalar, nəsr əsərləri onu göstərir ki, Naxçıvanın müasir inkişafı və qədim tarixi, həyata keçirilən böyük abadlıq və quruculuq işləri, qədim diyarımızın gözəlliyi şair və yazıçılarımızın əsərlərində böyük sevgi ilə tərənnüm olunmaqdadır.

Əsl ədəbiyyat təkcə onu yaradan xalqın deyil, bütün bəşəriyyətin, bütün xalqların milli sərvətidir. Gözəl bədii əsərlərdən bütün insanlar faydalanır. Muxtar respublika şairləri bu amili əsas götürərək daha gözəl əsərlər yaradacaq, Azərbaycan poeziya sənətinin inkişafına öz töhfələrini verəcəklər.

**Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 226